## Elektron Rəqabət İnformasiya Sisteminin yaradılması təsdiq edilmişdir

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 9 iyul tarixli Fərmanı ilə Elektron Rəqabət İnformasiya Sisteminin yaradılması təsdiq edilmişdir.

Elektron Rəqabət İnformasiya Sisteminin məqsədi rəqabət və istehlakçıların hüquqlarının müdafiəsi sahələrində istehlakçıların və bazar subyektlərinin müraciətlərinin (vəsatətlərinin) qəbulunu, emalını, onlara əlavə edilməli olan sənədlərin və ya məlumatların real vaxt rejimində digər dövlət orqanlarından (qurumlarından) sorğu əsasında əldə olunmasını, həmin müraciətlərə (vəsatətlərə) dair qərarların və məlumatların elektron qaydada təqdim edilməsini, habelə qeyd olunan sahələrdə məlumatların istifadəçilər üçün əlçatanlığını təmin edilməsidir.

Bu Fərman 2024-cü il 9 iyul tarixindən etibarən qüvvəyə minmişdir.